# Səyyar görüş-qəbullar yerlərdə problemlərin öyrənilməsi və həllinin səmərəli yoludur

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev yaşayış məntəqələrində əhali ilə növbəti görüş-qəbullar keçirmişdir. Həmin görüş-qəbullar haqqında qısa məlumatlrı dərc edirik.***

## Yeni Dizaxlı kəndi



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Yeni Dızaxlı kəndində keçirdiyi növbəti görüş qəbulda kənd ictimaiyyətindən əlavə rayon hüquq mühafizə orqanlarının, təhsil, səhiyyə və əhaliyə göstərilən müxtəlif xidmətlərlə bağlı təşkilatların rəhbərləri iştirak etmişlər.

Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev gö-



rüş-qəbul iştirakçılarını salamlamış, ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən rəhbər işçilərin bilavasitə yerlərdə əhali ilə keçirdikləri görüşlərin əhəmiyyətindən bəhs etmişdir. Başçı bu ilin ötən dövrü ərzində ölkədə və rayonda iqtisadi-sosial və quruculuq sahəsində həyata keçirilən layihələr barədə görüş iştirakçılarına məlumat vermişdir. Bildirmişdir ki, bu il əhalinin sosial rifahının yüksəldilməsi üçün çox böyük islahatlar aparılmışdır. Bu layihələr 4 milyondan çox ölkə vətəndaşını əhatə edir.

Görüş-qəbulun iştirakçıları dövlət başçısının rəhbərliyi ilə ölkədə və rayonda iqtisadi və sosial sahədə həyata keçirilən tədbirlərin möhtəşəmliyini dərk etdiklərini bildirmiş, rəhbər işçilərin yerlərdə keçirdikləri görüş-qəbulları yüksək qiymətləndirmişlər. Bütün bunlara görə ölkə başçısı İlham Əliyevə minnətdarlıqlarını ifadə etmişlər.

Çıxış edən kənd sakinləri Mustafa Sovzuyev, Muxtar Aşıralıyev, Zahir Səfərçinov və başqaları kəndin içməli su ilə təminatının yaxşılaşmasına, kənd yolunun asfadlaşdırılmasına, işıq xətlərinin yenilnməsi işinin başa çatdırılmasına, kənddəki tam orta məktəbin əsaslı təmir olunmasına köməklik göstərilməsini xahiş etmişlər.

Çıxışlarda qaldırılan məsələlərin həlli üçün müvafiq tədbirlər müəyyənləşdirilmiş, əlaqədar təşkilat rəhbərlərinə konkret tapşırıqlar verilmişdir.

**"Qəbələ"**

## Abrıx kəndi

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin növbəti görüş-qəbulu rayonun ucqar yaşayış məntəqəsi olan Abrıx kəndində keçirilmişdir.

Görüş-qəbulda rayonun hüquq mühafizə orqanlarının, təhsil, səhiyyə digər xidmət təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Rayon icra hakimiyyətinin başçısı görüş-qəbula toplaşanları salamlamış, ölkə Prezidentinin tapşırığına uyğun olaraq rəhbər işçilərin yerlərdə əhali ilə keçirilən görüşlərinin əhəmiyyətindən danışmışdır.

Başçı qeyd etmişdir ki, son illər ölkəmizdə sosial-iqtisadi, ictimai-mədəni sahələrdə böyük uğurlar qazanılmışdır. Dünyanın tanınmış reytinq təşkilatlarının hesabatlarında Azərbaycan bütün sahələrdə inkişafın səviyyəsinə görə ildən-ilə daha yüksək pillələr fəth edir.

Ölkəmizin hər bir guşəsi kimi



Qəbələ də bu yüksəlişdə ön sıralarda yer tutur. Elə Abrıx kəndinin son illər surətlə dəyişən, abadlaşan siması da bunu təsdiq edir. Rayon mərkəzindən 35 kilometr aralıda yerləşən bu kəndə müasir asfalt yol çəkilmiş, körpü salınmışdır. Vaxtilə bu kəndə gəlib-getmək çox çətin idi. Xüsusilə yaz payız aylarında sel, daşqın nəticəsində bu kəndin ətraf yaşayış məntəqələri və rayon mərkəzi ilə əlaqəsi bütünlüklə kəsilirdi. İndi isə kəndi rayon mərkəzi ilə dəqiqələrlə ölçülən müasir yol birləşdirir. Kənddə müasir tələblərə cavab verən yeni məktəb binası fəaliyyət göstərir.

Kənd sakinlərindən Əli Mustafayev, Yəhya Yəhyayev, Samir Rəfiyev, Ədalət Tağıyev, Şahir Abdullayev, Natiq Zəkəriyyəyev və başqaları çıxış edərək ölkəmizdə və rayonumuzda gedən nəhəng abadlıq-quruculuq işlərinə göstərdiyi böyük diqqət və qayğıya və Abrıx kəndinə uzun illər arzusunda olduqları



abad yol çəkilişinə görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Kənd sakinləri yaşayış məntəqəsinə təbii qaz çəkilişinə, elektrik xətlərinin yenilənməsinin başa çatdırılmasına, içməli su ilə təminatın, internetə çıxışın daha da yaxşılaşdırılmasına kömək göstərilməsini xahiş etmişlər.

Görüş-qəbul iştirakçılarının təklifləri diqqətlə dinlənilmiş, qaldırılan məsələlərin həlli üçün tədbirlər müəyyənləşdirilmişdir.

## Tikanlı kəndi



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayonun Tikanlı kəndində görüş-qəbul keçirmişdir.

Tədbirdə rayonun hüquq mühafizə orqanlarının, təhsil, səhiyyə, digər xidmət təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Rayon icra hakimiyyətinin başçısı görüş-qəbula toplaşanları salamlamış, görüş-qəbulların yerlərdə görülmüş və görüləcək işlərlə daha yaxından tanış olmaq, əhalini narahat edən problemləri daha dərindən öyrənmək üçün yaxşı imkan olduğunu diqqətə çatdırmışdır. RİH başçısı ölkədə və rayonda, o cümlədən hər bir yaşayış məntəqəsində həyata keçirilən



abadlıq-quruculuq işləri barədə kənd sakinlərinə məlumat vermişdir. Bildirmişdir ki, Tikanlı kəndi də abadlıq-quruculuq işlərindən kənarda qalmamışdır. Bu il kəndə asfalt yol çəkilmiş, kənddə xeyli abadlıq işləri görülmüşdür. Vaxtilə ulu öndər Heydər Əliyev yolu mədəniyyət, yüksək iqtisadiyyat, bir sözlə firavan həyat kimi qiymətləndirmişdir.

Sakinlərdən Qabil Yusifov, Dursun Bayramov, Rövşən Qocayev, Mahir Tağıyev və başqaları çıxış edərək ölkəmizdə və rayonumuzda həyata keçirilən abadlıq-quruculuq işlərinə, vaxtilə ucqar sayılan Tikanlı kəndinə abad yolun çəkilməsinə görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər. Onlar eyni zamanda kəndlilərə, məhsul istehsalçılarına göstərilən böyük maddi və mənəvi dəstəyə görə ölkə başçısına minnətdarlıqlarını ifadə etmişlər.

Sakinlər kəndə təbii qaz xəttinin çəkilməsinə, Bum-Tikanlı yolundakı çayın üzərinə körpü salınmasına, kənddəki tam orta məktəb binasının əsaslı təmir olunmasına köməklik göstərilməsini xahiş etmişlər.

Görüş-qəbul iştirakçılarının qaldırdıqları məsələlərin həlli üçün tədbirlər müəyyənləşdirilmişdir.

**«Qəbələ»**

**İlkin Vəlizadə (foto).**